# Bədii sözün əbədi gücü




**Kainatın bütün sirlərini açmağa qadir olan iki güc var: zaman və söz. Zaman hadisələri bir-birinə calayır, tarixi formalaşdırır, həyatın ritmini diktə edir. Söz isə o tarixin yaddaşını yaradır, duyğuları çərçivəyə salır, zamanın sərhədlərini aşaraq bir insanın düşüncəsini başqasının qəlbinə daşıyır. Yazıçılar - məhz bu sehrin ustalarıdır. Onlar qələmləri ilə reallığın içindən keçərək onu bəzən daha parlaq, bəzən daha qaranlıq, amma hər zaman daha canlı bir dünyaya çevirirlər.**

Bir yazıçının qələmi yalnız mürəkkəblə deyil, həyatın içindən süzülən minlərlə hekayə ilə islanır. Onlar adi insanlardan fərqli olaraq, hər şeydə bir məna axtarır, susqunluqda belə sözlər eşidirlər. Küçədə tələsik addımlayan bir adamın gözlərində itirilmiş ümidləri görür, günəşin batmasında bir ömrün sonuncu səhifəsini hiss edirlər. Onların yaratdığı personajlar təkcə kitab səhifələrində yox, real həyatda, bizim aramızda yaşayır. Yazıçı olmaq təkcə gözəl ifadələr işlətmək, süjet qurmaq, ya da təsirli dialoqlar yazmaq deyil. Bu, həm də bir missiyadır - insanları düşündürmək, onlara yeni dünyalar açmaq, bəzən isə bəşəriyyətin ən dərin qaranlıqlarına işıq salmaqdır. Bəziləri bunu romantik qəhrəmanlar yaratmaqla, bəziləri sərt reallıqları çılpaqlığı ilə göstərməklə edir. Amma nəticədə hamısı bir məqsədə xidmət edir: insanları dəyişmək, onları bir az daha duyğulu, bir az daha anlayışlı etmək. Bəlkə də elə buna görə yazıçılar heç vaxt tamamilə unudulmur. Zaman keçdikcə nəsillər dəyişir, cəmiyyətlər formalaşır, amma onların yazdığı əsərlər həmişə yaşayır. Çünki yazıçının gücü - sözlərində, sözlərin gücü isə insan ruhuna toxunmaq qabiliyyətindədir.

Bir çox adlar zamanın sərt sınaqlarından keçərək əbədiyyətə qovuşur. Bəzi sözlər isə kağız üzərində yaransa da, min illər boyu insanların yaddaşında yaşayır. Elə buna görə də yazıçılar sadəcə qələm adamları deyil - onlar tarixlə insan ruhunun qovşağında dayanan sirli keşikçilərdir. Dünya onların yaratdığı hekayələrlə nəfəs alır, onların təsvir etdiyi obrazlarda özünü tapır. Məhz bu səbəbdən, bəşəriyyət yazıçıların əməyini unutmamaq üçün bir günü onlara həsr edib: 3 Mart - Ümumdünya Yazıçılar Günü.

Bu günün kökləri ötən əsrin əvvəllərinə gedib çıxır. 1921-ci ildə yaradılan PEN klubu (adı ingilis dilində poets - şairlər, essayists - oçerkçilər və novelists - romançılar sözlərinin baş hərflərindən yaranıb) məhz yazıçıları bir araya gətirmək, onların səsini dünyaya çatdırmaq üçün qurulmuşdu. Onun yaradıcılarından biri ingilis yazıçısı Ketrin Emi Douson-Skott məhz belə bir ehtiyacın içindən doğan bir ideyanı gerçəyə çevirdi və bu təşkilatın yaradıcısı oldu.

Klubun ilk prezidenti məşhur ingilis yazıçısı Con Qolsuorsi oldu. O, yazıçıların təkcə bədii yaradıcılıqla deyil, həm də cəmiyyətin vicdanı olmaq missiyası ilə yaşamalı olduqlarına inanırdı. 1923-cü ildə Londonda təşkil edilən birinci beynəlxalq PEN konqresi bu ideyanın artıq sərhədləri aşdığını sübut etdi. O zaman cəmi 11 ölkədə PEN mərkəzləri mövcud idisə, bu gün dünyanın 130 ölkəsində bu təşkilat fəaliyyət göstərir. Deməli, söz azadlığı uğrunda mübarizə təkcə bir neçə ədibin şəxsi arzusu yox, qlobal bir ehtiyacdır.

Zaman keçdi, dünya dəyişdi, müharibələr başladı və bitdi, amma söz yenə də öz gücünü qorudu. 1986-cı ilin yanvarında PEN klubun 48-ci beynəlxalq konqresi keçirildi. Bu dəfə yazıçılar təkcə ədəbiyyatın gücündən yox, onun sülhə gətirə biləcəyi işıqdan danışdılar. Konqresin iştirakçıları yekdilliklə bir qərara gəldilər: martın 3-ü "Yazıçıların Ümumdünya Sülh Günü" elan olunsun. Bu gün sözün qılıncdan daha güclü olduğunu, insanları birləşdirmək və dəyişdirmək qabiliyyətinə malik olduğunu bir daha sübut edirdi.

1986-cı ildə "Ümumdünya Yazıçılar Günü" elan edilərdə artıq dünyanın yüzdən çox ölkəsində PEN mərkəzləri fəaliyyət göstərirdi. Söz azadlığını müdafiə edən bu qurumlar həm də yazıçıların cəmiyyət qarşısında daşıdıqları etik öhdəliyi önə çıxarırdı.

2011-ci ildə Azərbaycan PEN-klubu təsis edildi və onun ilk prezidenti Xalq yazıçısı Çingiz Abdullayev seçildi. Klubun əsas məqsəd və vəzifələri təkcə dünyada yox, bizim ölkəmizdə də eyni dəyərlər əsasında formalaşıb: söz azadlığını qorumaq, yazıçıların hüquqlarını müdafiə etmək, ədəbiyyatı siyasi və sosial məhdudiyyətlərdən azad bir vasitə forması kimi yaşatmaq. Lakin Azərbaycanda PEN-klubun xüsusi bir missiyası daha var - milli ədəbiyyatımızı dünya səhnəsinə çıxarmaq, Azərbaycan yazıçılarını beynəlxalq miqyasda tanıtmaq.

Bu, əlbəttə ki, tərcüməsiz mümkün deyil. Çünki hər xalqın ədəbiyyatı yalnız öz dilində qaldıqda, o, sərhədləri aşa bilmir. Məhz buna görə PEN-klub yerli müəlliflərin əsərlərinin müxtəlif dillərə çevrilməsinə, onların xarici ədəbi mühitdə tanınmasına xüsusi diqqət yetirir. Klubun üzvləri isə ölkənin ən istedadlı, görkəmli və fəal yazıçıları arasından seçilir. Klub vasitəsilə ölkəmizdən olan yazıçılar dünya ədəbiyyatına doğru addımlayır, dünya oxucuları isə Azərbaycan ədəbiyyatı ilə tanış olurlar. Ədəbi sərhədləri aşmaq, sözün gücü ilə mədəniyyətləri birləşdirmək və milli yazıçıların yaradıcılığını qlobal müstəviyə çıxarmaq - bu, Azərbaycan PEN-klubunun ən böyük hədəflərindəndir.

Tarix boyu yazıçılar və şairlər toplandıqları məclislərdə, dərnəklərdə yalnız poeziya və nəsr müzakirə etmirdilər - onlar dövrün nəbzini tutur, cəmiyyətin ruhunu əks etdirirdilər. Bu bir araya gəlmələr, həm də mədəniyyətin bütövləşməsi, fikir azadlığının qorunması üçün vacib idi. Azərbaycanda da sözün gücünə inanan yaradıcı insanlar uzun illər ərzində müxtəlif ədəbi birliklərdə toplaşaraq bu ənənəni yaşadıblar. Lakin ölkəmizdə bütün yazıçıları bir araya gətirən vahid təşkilatın yaradılması məsələsi yalnız XX əsrin əvvəllərində gündəmə gəldi. 1923-cü ildə bir qrup yazıçı çap etdirdikləri müraciətdə Azərbaycan ədiblərinin bir çətir altında birləşməsinin zəruriliyini vurğuladılar. Beləliklə, Türk Ədib və Şairlər İttifaqı Dərnəyi təsis edildi. Bu birlik sonralar "İldırım" adı ilə tanındı və dövrün qələm sahibləri üçün mərkəzə çevrildi. Amma ədəbiyyat yalnız bir təşkilatla kifayətlənə bilməzdi. Demək olar ki, eyni dövrdə - 1925-ci ilin dekabrında Bakıda daha bir önəmli ədəbi təşkilat yaradıldı - "Qızıl qələmlər" cəmiyyəti. Bu cəmiyyət öz ətrafına gənc və istedadlı yazıçıları toplayaraq onların inkişafına dəstək oldu, ədəbi tədbirlər, görüşlər, müzakirələr təşkil etdi. "Qızıl qələmlər" tezliklə Azərbaycan ədəbi mühitində böyük nüfuza sahib oldu və yazıçıların peşəkar mühitdə bir araya gəlməsinə imkan yaratdı.

Lakin Azərbaycan ədəbiyyatı daha böyük bir təşkilata ehtiyac duyurdu. Bu ehtiyac 1934-cü il iyunun 13-də Bakıda Azərbaycan Yazıçılarının I Qurultayında gerçəkləşdi - Azərbaycan Yazıçılar Birliyi rəsmi olaraq təsis edildi. Bununla da ədəbi məclislər və kiçik qruplar şəklində fəaliyyət göstərən yazıçılar vahid bir təşkilatın üzvləri oldular. O gündən bəri Azərbaycan Yazıçılar Birliyi təkcə yazıçıları birləşdirən bir qurum deyil, həm də ədəbiyyatın inkişafına yön verən, onun istiqamətlərini müəyyən edən bir institut kimi fəaliyyət göstərir.

Bu gün artıq Azərbaycan Yazıçılar Birliyi sıralarında minlərlə yaradıcı insanı birləşdirir. Bu təşkilat təkcə yazıçılar üçün bir ev deyil - o, həm də ədəbiyyatımızın keşikçisi, söz sənətinin qoruyucusudur. Ədəbi irsin yaşadılması, gənc yazıçıların dəstəklənməsi, ədəbiyyatın beynəlxalq səviyyədə tanıdılması - bunlar Birliyin əsas missiyalarındandır. Ədəbiyyat təkcə yazıçının qələmindən çıxan hekayələr deyil, o, həm də bir millətin yaddaşı, tarixidir. Azərbaycan Yazıçılar Birliyi isə bu tarixi yaşadan və gələcək nəsillərə ötürən ən böyük ədəbi qüvvədir. Hələ əsrlər əvvəl Məhsəti Gəncəvi öz misralarında qadın azadlığı, sevgi və mənəviyyatdan danışanda, Xaqani Şirvani poeziyanı hikmət və fəlsəfə ilə yoğuranda, Nizami Gəncəvi dahi "Xəmsə"si ilə dünya ədəbiyyatının sütunlarından birini quranda Azərbaycan sözü artıq sərhədləri aşmışdı. İmadəddin Nəsimi, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov kimi dahilər bu ənənəni davam etdirdi. Beləliklə, XIX və XX əsrlərdə Azərbaycan ədəbiyyatı yeni nəfəs qazandı. Seyid Əzim Şirvani klassik poeziyanın çərçivələrini aşaraq cəmiyyətin problemlərini qələmə aldı. Mirzə Ələkbər Sabir satiranın gücü ilə gerçəyi xalqa çatdırdı. Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" məktəbini yaradaraq Azərbaycan realizmini yeni mərhələyə yüksəltdi. Hüseyn Cavid dramaturgiyanın fəlsəfi dərinliklərini açdı, Səməd Vurğun xalqın qəlbində yurd sevgisini əbədiləşdirdi. Abdulla Şaiq, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Məmməd Səid Ordubadi, Süleyman Rəhimov və başqaları isə ədəbiyyatımızın müxtəlif janrlarını zənginləşdirərək yeni ədəbi epoxaların təməlini qoydular.

Zaman keçdi, dünya dəyişdi, amma Azərbaycan yazıçısı yenə öz yolunda - xalqın tarixini, mədəniyyətini və tale yollarını əks etdirməkdə davam etdi. Anar, Elçin, İsmayıl Şıxlı və bir çox müasir yazıçılar bu yolu böyük ustalıqla davam etdirdilər, Azərbaycan sözünü yenidən dünyaya tanıtdılar.

Azərbaycan öz zəfər tarixini yazarkən, yazıçılarımız da bu tarixi qələmə alırlar. 2020-ci ilin Vətən müharibəsi təkcə döyüş meydanında deyil, həm də kitabların, poemaların, romanların səhifələrində əbədiləşir. Bu gün Azərbaycan yazıçıları təkcə keçmişə boylanmır, həm də bu zəfərin gələcək nəsillərə necə çatdırılacağını düşünürlər. Ümumdünya Yazıçılar Günü Azərbaycan üçün artıq təkcə ədəbiyyat bayramı deyil. Bu gün həm də xalqın öz kimliyini, mübarizəsini və qələbəsini qələmə alan yazıçıların uğurlarını qeyd etdiyi gündür.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 2 mart (№ 47).- S.11.